

**Lerik Rayon Tarix- Diyarşünaslıq muzeyi 1983 - cü ildən fəaliyyət göstərir. Burada bölgənin tarixi keçmişi, bu günü, maddi-mədəniyyət abidələri, flora və faunası haqqında geniş məlumat verilir.**

# Tariximizi yaşadan eksponatlar

**Muzey 260 m ekspozisiya sahəsi olan birmərtəbəli binada yerləşir. Burada 3665 eksponat nümayiş etdirilir. 2010-cu ildə muzeydəki eksponatlara 1630 nəfər tamaşaçı baxmışdır.**

Regionda turizmin inkişafı muzeyə gələnlərin sayını artırmışdır. Belə ki, muzeyə gələnlərin çoxu turistlərdir. Toplanmış eksponatların əksəriyyəti orijinaldır.

Altı salonda arxeoloji materiallar, etnoqrafik məmulatlar, qədim məişət əşyaları, uzunömürlülərin əl işləri və fotoşəkilləri, numizmatika inciləri, təbiətimizin flora və faunasını əks etdirən eksponatlar, qəzet və jurnal materialları, fotoxronika sənədləri və s. nümayiş etdirilir. Mövzu-ekspozisiya planına əsasən salon və onlara daxil olan bölmələr tarixi əhəmiyyətinə, xronoloji ardıcıllığına görə 2005-ci ildə sistemləşdirilərək yerləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 mart 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş tədbirlər planına əsasən, muzeydə Azərbaycanın XX əsrdə, habelə son onillik ərzində əldə etdiyi nailiyyətləri əks etdirən yeni ekspozisiyalar yaradılmışdır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 11 fevral 2004-cü il tarixli "Regionların sosial-iqtisadi inkişafına dair" Fərmanı muzey işinin proqramına çevrilmişdir.

Dünya şöhrətli siyasətçi H.Əliyevin Azərbaycan üçün gördüyü işlərə və beynəlxalq aləmdə Azərbaycanın müstəqil bir dövlət kimi tanınması üçün apardığı fəaliyyətinə dair ayrıca təşkil olunmuş bölmədə fotoşəkillər, sənədlər, qəzet və jurnal materialları nümayiş etdirilir.

H. Əliyevin tarixi xidmətlərinə həsr edilmiş bu bölmədə həmçinin fotoxoronika materialları, H.Əliyevin fenomeni haqqında yazılmış kitablar,müdrik siyasətçinin qiymətli kəlamları muzeyin ən dəyərli eksponatlarından sayılır.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2005-ci ilin aprel ayında keçirilmiş kollegiyasının tələblərinə uyğun olaraq, muzeyimizdə ekspozisiyaların yenidən qurulması və təkmilləşdirilməsi istiqamətində yeni işlərdən biri də muzeyin həyətində açıq səma altında təşkil etdiyimiz eksponatlardan ibarət sərgidir.

Muzeydə ədəbi-bədii gecələr, görkəmli dövlət xadimlərinin, alimlərin və digər tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi ənənə şəklini almışdır. Beynəlxalq Muzeylər günü münasibəti ilə ədəbi-bədii kompozisiya hazırlanaraq muzey tamaşaçılarına təqdim edilmişdir.

2010-cu ildə 1030 nəfərdən çox turist muzeydə olmuşdur. Muzeydə tez-tez Böyük Vətən müharibəsinin, Qarabağ döyüşçülərinin iştirakçıları ilə görüşlər keçirir və söhbət aparırıq. Muzeyin eksponatlarından dərs vəsaiti kimi də istifadə edilir. Orta məktəb şagirdlərinin tarix dərslərinin bəziləri salonlarda keçirilir. 2010-cu ildə muzey işçiləri tərəfindən çoxlu eksponat və sənəd toplanmış və foto materiallar əldə edilmişdir.

Lerik Rayon Tarix-Diyarşünaslıq Muzeyi Uzunömürlülər filialı ilə birlikdə rayonun yaşlı sakinlərinin əl işlərindən ibarət sərgilər təşkil etmişdir.

Hər il olduğu kimi ötən il də inventarlar və eksponatlar yoxlanılıb aktlaşdırılmış, hər bir eksponat xüsusi diqqət və qayğı ilə təmizlənərək səliqə ilə öz yerinə qoyulmuşdur. Bu il də muzeydə təmir və yeni tərtibat işi görülmüşdür. Plan üzrə işimizi davam etdirəcəyik.

Lerik Rayon Tarix-Diyarşünaslıq Muzeyində 20 nəfər işçi işləyir.

Onlardan 4 nəfəri ali təhsillidir. İşçilərin əksəriyyəti uzun müddətdir ki, muzeydə işləyir. Tamaşaçıları məlumatlandırmaq üçün hər bir eksponat işçilərimiz tərəfindən elmi cəhətdən öyrənilmişdir.

Bununla yanaşı, muzeyin fəaliyyətində nöqsan və problemlər vardır. Məsələn, elmi işçilər tariximizi və etnoqrafiyamızı daha dərindən öyrənməyə lazımınca diqqət yetirməmişlər. Muzeydə eksponat toplamaq işi də çətinləşmişdir. Ərazimiz dağlıq zona olduğu üçün eksponat toplayıb muzeyə gətirmək çox çətindir. Bunun üçün heç bir nəqliyyat vasitəsi ayrılmamışdır.

Azərbaycan Respublikası Neft Şirkətinin yaxından dəstəyi və Respublika Mədəniyyət və Turizm Nazirliyinin qayğısı ilə Respublikada yeganə olan uzunömürlülər filialı üçün çox yaraşıqlı bir bina inşa edilmişdir.

Respublika Prezidenti cənab İlham Əliyev 2010-cu ildə rayonumuzda olarkən həmin binanın açılışını etmişdir. Bu, rayon uzunömürlülərinə dövlət qayğısı deməkdir. Uzunömürlülər muzeyi üçün büdcə vəsaiti hesabına lazım olan inventar və avadanlıq alınmışdır.

2010-cu ildə muzeydə əsaslı təmir aparılmış və xeyli iş görülmüşdür.

**Bildiyimiz kimi, Respublika Prezidenti İ.Əliyev cənablarının tapşırığı ilə 2011-ci il turizm ili elan olunub. Biz də bu təşəbbüsə qoşularaq 2011-ci ildə Lerik Rayon Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyətini gücləndirərək Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin qərarlarından irəli gələn vəzifələri yerinə yetirəcək, 2011-ci ildə işimizi yeni tələblər səviyyəsində quracağıq.**

**• Sevil AĞAYEVA,**
*muzeyin direktoru*